# Kiçikyaşlı məktəblilərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması üzrə işin mahiyyəti və vəzifələri

**Gülzar Elşad qızı Məhərrəmova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** fidan.meherremova.1993@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** uşaq, xalq, tarix, dövlət, məktəbli, tərbiyə, məktəb, şəxsiyyət, millət
**Ключевые слова:** дети, люди, история, государство, образование, воспитание, школа, идентичность, нация
**Key words:** children, people, history, state, schooling, upbringing, school, identity, nation

*"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır!*
H. Əliyev

Uşaqlar hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti, hətta heç bir sözlə ifadə edilməyən və dəyəri heç nə ilə ölçülməyən əvəzsiz bir varlıqlardır. Tarix boyu hər bir dövlət, cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən vacib vəzifələrindən biri hesab etmişdir. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və eyni zamanda məsuliyyətli, mənəvi qüvvə tələb edən bir işdir. Planetimizin əhalisinin üçdə birini təşkil edən uşaqlarımızın necə tərbiyə olunmasından, hansı ideyalara qulluq etməsindən hər bir ölkənin gələcəyi asılıdır. Həmçinin uşaqların şəxsiyyət kimi formalaşdırılması demokratik dövlətin milli təhsil sisteminin vəzifəsidir. "Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda yüksək əxlaqi tərbiyə ocağıdır" uşaq və gənclərimizin milli və ümumbəşəri dəyərlər əsasında formalaşdırılmasını, dövlətçilik ideyalarına sədaqət, vətənə, torpağa məhəbbət ruhunda tərbiyəsini daim diqqət mərkəzində saxlamalıdır. Uşaqlarımızın gələcəkdə normal, hərtərəfli inkişaf etməsi, vətənpərvər vətəndaş kimi yetişməsi üçün təhsilə diqqət ən öndə gedən məsələdir. Bu gün təhsil sisteminə yüksək səviyyədə diqqət yetirilirsə, bu istiqamətdə işlər görülürsə bu o deməkdir ki, uşaqlar xoşbəxt olacaq, cəmiyyət üçün yararlı gənclər yetişəcək. Görülən işlər onu deməyə əsas verir ki, həqiqətən də dövlətimiz layiqli əllərdə olacaq. Ona görə də uşaqlara diqqət və qayğı hər zaman göstərilməli və təbii ki onların problemlərinin həllinə dövlət səviyyəsində nəzarət edilməlidir.

Ulu öndər Heydər Əliyev elə bir şəxsiyyət və lider olmuşdur ki, onun irsinin öyrənilməsi və təbliği ümumdövlət, ümumxalq işidir. Yüksək milli-əxlaq nümunəsi olan Ümummilli liderimiz Heydər Əliyevin fenomenal irsi və mənalı həyat yolunun fəal təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir. Gənc nəsli, uşaq və yeniyetmələri milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə etmək üçün biz Ulu öndər Heydər Əliyev şəxsiyyətinə müraciət etməliyik və bu dahi insanın həyatının əbədi milli örnək kimi uşaq və yeniyetmələr arasında geniş təbliğ olunmasına çalışmalıyıq. Ümummilli lider Heydər Əliyev şəxsiyyətinin dahiliyini, onun əvəzolunmazlığını təsdiq edən ən birinci fakt odur ki, o, böyüklərə qarşı nə qədər sərt və tələbkar idisə, eyni zamanda uşaqlara qarşı bir o qədər nəzakətli və mərhəmətli idi. O daim

uşaqların təhsilinə, onların savadlı və cəmiyyət üçün yararlı olmalarına çalışmışdır. Heydər Əliyev hər zaman deyirdi “Uşaqlar bizim gələcəyimizdir!” “Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir ” Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir. Əziz uşaqlar... Mən sizin aranızda olanda o qədər rahat oluram ki, heç ayrılmaqda istəmirəm. Siz bilirsiniz ki, mənim də nəvələrim var. Ancaq mənim üçün fərqi yoxdur, mən nəvələrimi, öz uşaqlarımı, öz övladlarımı sevdiyim kimi, sizi də sevirəm bütün Azərbaycan uşaqlarını sevirəm. Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz. Müstəqil Azərbaycanımızın daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz. Bu uşaqlara göstərilən diqqət və qayğının bariz nümunəsidir. Hər bir təhsil müəssisəsində ümummilli liderin fəaliyyətini əks etdirən foto guşələr və onun fəaliyyəti ilə bağlı dərslər aparılan otaqlar yaradılmışdır. Ənənəvi olaraq bütün tip təhsil müəssisələrində Azərbaycan Respublikasının atributları təbliğ olunur, məktəblilərdə onlara məhəbbət hissi aşılanır. Dövlət bayrağının, gerbinin, himninin yaranması və qorunub saxlanmasında, tətbiqində ulu öndər Heydər Əliyevin fəaliyyəti məktəblilərə öyrədilir. Dövlətçilik tərbiyəsinin mahiyyətini daha da zənginləşdirmək baxımından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncam və çıxışlarından irəli gələn vəzifələr təhsil müəssisələrində pedaqoji ictimaiyyətə çatdırılır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətində uşaq və gənclərin tərbiyəsi xüsusi yer tutur. Qloballaşan dünya prosesləri bizdən həyati bacarıqlara yiyələnən insanın tərbiyə olunmasını tələb edir. Təhsil alan uşaq və gənclərin dövlətçilik ruhunda tərbiyəsi prioritet sahələrdəndir. Müəyyən müddətdə cəmiyyətimizdə gedən mənəvi iqtisadi tənəzzül və aşınmalar, üzləşdiyimiz Dağlıq Qarabağ problemi uşaqların da taleyindən yan keçmədi. Həmin dövrdə uşaqlar arasında təhsildən yayınma, məktəb illəri dövründə olan uşaqların alverə cəlb edilməsi, təhsil ocaqlarında tədrisin keyfiyyətinin aşağı olması, bir sözlə, uşaqlara qayğısızlıq cəmiyyətdə narahatlıq hissi yaratmırdı. Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuş, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, “SOS Kinderdorf İnternəşnl” təşkilatı ilə respublika hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən “Bakı SOS uşaq kəndi” salınmışdır. Burada Avropa standartlarına uyğun 12 ailə evi, uşaq bağçası və digər yardımçı bina fəaliyyət göstərir. Həmçinin ölkəmiz uşaq hüquqları sahəsində bir çox beynəlxalq müqavilələrə qoşularaq, bu sahədə müvafiq öhdəlikləri öz üzərinə götürüb. Azərbaycanda 1658 məktəbəqədər təhsil müəssisəsi, 4555 ümumi təhsil məktəbi, 42 ali təhsil ocağı, 589 uşaq poliklinikası və ambulatoriyası, 4 körpələr evi, 6 uşaq evi, valideyn himayəsindən məhrum uşaqlar üçün 2 internat məktəbi, 8 uşaq teatrı, 103 uşaq kitabxanası, 9308 idman müəssisəsi fəaliyyət göstərir. Son illər 300 min yerlik 1360 yeni məktəb binası tikilib, 300 min yerlik 1360 yeni məktəb binası tikilib, 300-dək təhsil ocağı isə əsaslı təmir edilib.

Heydər Əliyev xalqımızın sabahını – gənc nəsli yaşatmaq uşaqlar arasında fərqli həyat tərzini yaxşılaşdırmaq üçün daimi xarici ölkələrin diqqətini cəlb etməyi bacarmışdı. Bir dövlət xadimi kimi Heydər Əliyevin Azərbaycan dövlətinə istər sovet dövründə, istərsə də müstəqillik dövründə rəhbərlik etdiyi zaman söylədiyi fikirlər, müxtəlif yığıncaqlarda etdiyi nitqlər və məruzələr, verdiyi bəyanatlar “Heydər Əliyev siyasi kursu”nun əsas prinsip və xüsusiyyətlərini özündə əks etdirir. Bizim vəzifəmiz onları ardıcıl şəkildə oxumaqdan, sistemləşdirib vahid nəzəri sistem halında gələcək nəsillərə çatdırmaqdan ibarətdir. Heydər Əliyev tarixi hadisələrin fəal iştirakçısı kimi bunları vahid sistem halına gətirməyə vaxt və macal tapmadı.

Əgər biz bu tarixi şəxsiyyətin yetirmələri və davamçıları olaraq dövlətimizin müstəqilliyinin əbədiliyi və xalqımızın xoşbəxt gələcəyi naminə həmin məktəbin əbədiyaşar olmasını istəyiriksə, bunu bizim özümüz etməliyik. Ona görə etməliyik ki, müstəqil Azərbaycanın qurulmasının və inkişaf etdirilməsinin elmi-nəzəri bazasının hansı prinsiplərə söykəndiyini gələcək nəsillər asanlıqla dərk edə bilsinlər. Heydər Əliyev demişdir: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik. Əmin olun ki, siz bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz. Dövlət başçısının 2009-cu ilin "Uşaq ili" elan edilməsi haqqında sərəncamı da ölkədə uşaqlara göstərilən diqqət və qayğının bariz nümunəsidir. Azərbaycan bu istiqamətdə vaxtaşırı beynəlxalq səviyyədə qəbul etdiyi sənədlərin yerinə yetirilməsi istiqamətində siyasətini qurur.

Cəmiyyətin həssas üzvü olan uşaqların xüsusi diqqətə ehtiyacları var. Bu gün uşaqlar insan hüquqları subyekti olaraq beynəlxalq səviyyədə diqqət mərkəzindədir. Uşaq hüquqları sahəsində fəaliyyətin səmərəli şəkildə həyata keçirilməsi üçün aidiyyatı icra strukturlarının əlaqələndirilmiş şəkildə fəaliyyəti çox zəruridir. Zəmanənin böyük ədəbi dühası Viktor Hüqo yazırdı ki, yer üzündə uşaq qığıltısı qədər təntənəli himn yoxdur. İstənilən cəmiyyətdə körpə və uşaqlar ailə üçün sevinc və xoşbəxtlik simvolu sayılmışlar. Cəmiyyətin sağlam özəyi, gələcəyi, köməyə ehtiyac duyan kövrək zümrəsi olan uşaqlar insan həyatının mənası, ailənin sevinci, ən böyük zinəti, dəyərli sərvətidir.

Təsadüfi deyildir ki, müasir dövrdə hər bir dövlət cəmiyyətin həssas zümrəsi kimi tarixən yüksək nəvazişlə əhatə olunan uşaq və yeniyetmələrin sosial ehtiyaclarının hər tərəfli təmini, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetişməsi üçün bütün zəruri tədbirləri həyata keçirir. İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır. Mədəniyyət-bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq və hər daim inkişaf edəcək.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Xalq daim öz kökünü xatırlamalıdır. Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq. Çünki müəllim məktəbdə ilk növbədə şəxsiyyət yetişdirir və çalışmalıdır ki, həmin şəxsiyyət də vətəninə, millətinə layiq bir tərzdə yetişsin. Müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır. Çünki bir insan öz ölkəsi, vətəni haqqında nə qədər çox məlumatlı olarsa, torpağını da bir o qədər çox sevər. Onun milli sərvətlərinə, milli dəyərlərinə qırılmaz iplərlə bağlanar. Və onu qorumağı özünə borc hesab edər. Həyatını müəllimliyə sərf edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insandır.

Ölkəmizin tarixi haqqında sistemli, uşaqların başa düşəcəyi tərzdə verilən məlumatlar da vətənpərvərlik, dövlətçilik ruhunda tərbiyəsində mühüm rol oynayır. İstər dərsliklərdəki ayrı-ayrı mətnlərdə, istərsə də aparılan tərbiyəvi söhbətlər, tədbirlər zamanı verilən belə məlumatlardan şagirdlər Vətənimizin zəngin tarixi, xalqımızın zaman-zaman öz varlığını qorumaq üçün apardığı mübarizələr, azadlıq və müstəqillik uğrunda gedən mücadilələr haqqında biliklər əldə edir, bu biliklər əqidəyə çevrilərək onlarda vətənpərvərlik, dövlətçilik hisslərini daha da artırır. İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq, dövlətçilik tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi yalnız özbaşına axınla kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil

olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməlidirlər. Uşaqlar ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır.

Artıq bu gün müstəqil respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır.

Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət-insan-vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən insan yetişdirmək deməkdir. Düzgün təşkil olunmuş tərbiyə insanı ləyaqətli vətəndaş, yaxşı işçi, ailə başçısı olmağa hazırlamalıdır. Məlumdur ki, tərbiyə prosesi ziddiyyətli və uzun sürən prosesdir.

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Təhsil millətin gələcəyidir. Orta əsr Şərq təsəvvürlərinə görə təlim və tərbiyə arasında qırılmaz qarşılıqlı əlaqə vardır: tərbiyə verməyən bilik odunsuz ocağa, bilik verməyən tərbiyə isə bədənsiz ruha bənzəyir.

Bildiyimiz kimi, hər övladın öz valideynlərinin iş mühiti onun maraq dairəsinə səbəb olur. Yəni uşaqlar hər daima onlarla maraqlanmağını gözləyir. Uşaq şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailədə xoşbəxt və mehriban mühitdə böyüməsi zəruri hesab olunmuşdur. Ancaq belə şərait uşaqları cəmiyyətdə müstəqil həyata hazırlaya, onları ümumbəşəri ideallar ruhunda, sülh və şəxsi ləyaqət ruhunda tərbiyə edə bilər. Uşaqların mədəniyyətə, dəyərlərə və cəmiyyətin normalarına yiyələnməsi ailədən başlayır. Körpəlik yaşından yeniyetməlik yaşına qədər uşaqların yemək və müdafiəsinin yəmin olunması üçün əsas məsuliyyəti ailə daşıyır. Ailənin müəyyənedici rolu orada böyüyən insanın bütün fiziki və mənəvi həyat kompleksinə dərin təsir göstərir. Ailə uşağa həm yaşamaq, həm də tərbiyə olunmaq üçün vacibdir. Uşağın həyatının, xüsusilə, ilkin dövründə ailənin göstərdiyi təsir digər tərbiyəvi təsirlərdən üstündür.

Tədqiqatların nəticələrinə görə, bu dövrdə ailə həm məktəbi, həm kütləvi informasiya vasitələrini, həm ictimai təşkilatları, dostların, ədəbiyyat və incəsənətin təsirini əks etdirir. Belə nəticəyə gələ bilərik ki, ailənin uşağa göstərdiyi tərbiyəvi təsir bütün digər tərbiyəvi təsirlərdən güclüdür. Uşaq böyüdükcə həmin təsir zəifləyir, bəzən də tamamilə yox olur. Elə keyfiyyətlər formalaşdırılır ki, onları ailədən kənarda formalaşdırmaq çətin olur. Həmçinin ailə uşağın peşə seçməsinə düzgün istiqamət, əhəmiyyətli təsir göstərir. Ailə tərbiyəsinin məqsədi şəxsiyyətdə elə keyfiyyətləri formalaşdırmaqdır ki, onlar çətinlikləri və maneələri aradan qaldırmağa qaldırmağa kömək etsin. Həyat gözlənilməz hadisələrlə doludur. Uşağın intellektual və yaradıcı qabiliyyətlərinin, idrakı qüvvələrinin inkişafı və ilkin əmək fəaliyyətində qazandığı təcrübə, əxlaqi və estetik təcrübəsi, emosional mədəniyyəti və fiziki sağlamlığı ailədən, valideynlərdən asılıdır. Bütün bunlar ailə tərbiyəsinin başlıca məqsədini təşkil edir. Ailə nə

qədər yaxşı olarsa, uşağa yaxşı təsir göstərərsə, şəxsiyyətin fiziki, əxlaqi və əmək tərbiyəsinin nəticələri bir o qədər də yüksək olar. Bir sözlə ailə və uşaq bir-birini güzgü kimi əks etdirir.

Sağlam və o cümlədən tərbiyəli uşaqlar böyütmək üçün biz hər gün daha çalışmalıyıq. Bir həyata toxunmaq, onu gözəlləşdirmək böyük bir möcüzədir.

**Məqalənin aktuallığı.** Uşaqlarımızın normal, hərtərəfli inkişaf etməsi, vətənpərvər vətəndaş kimi yetişməsi təhsil müəssisələri qarşısında duran ən vacib məsələlərdəndir. Hal-hazırda ölkəmizdə bu sahədə xeyli işlər görülmüş və görülməkdədir. Buna baxmayaraq, təhsil müəssisələrimizdə kiçikyaşlı məktəblilərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması sahəsində həyata keçirilməsi zəruri sayılan işlər də az deyildir. Məqalədə məhz bu mövzuya həsr olunduğundan onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə kiçikyaşlı məktəblilərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması sahəsində respublikamızda həyata keçirilən tədbirlərin əsas xüsusiyyətləri göstərilir, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın əsas istiqamətləri açıqlanır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. A.N. Abbasov. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Ə.Pasayev, F.Rüstəmov. Pedaqogika. Bakı: Elm və təhsil, 2010.
3. M.H. Ağayev. Kiçik yasli məktəblilərin tərbiyəsi. Bakı, 2006.
4. F.Allahverdiyeva, S.Tağıyeva. Pedaqogika. Bakı: Elm və təhsil, 2018.
5. "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnali.
6. İnternet resurslari:www:clb.az/html/heydər.aliyev.and.children.html

**Г.Е. Магеррамова**

## Суть и задачи работы по воспитанию младших школьников в духе преданности азербайджанской государственности

## Резюме

Одной из наиболее важных проблем, стоящих перед образовательными учреждениями, является всестороннее развитие современных детей и развитие истинной гражданственности в обществе. В настоящее время в этой области в нашей стране проделана большая работа. Однако в учебных заведениях проводится много работы, которая имеет отношение к воспитанию детей младшего возраста в духе преданности Родине и государственности. Статья затрагивает эту проблему и объясняет суть и задачу воспитания молодых школьников в духе преданности азербайджанской государственности.

**G.E. Maharramova**

## The essence and objectives of the work of educating the younger pupils in the spirit of devotion to the Azerbaijani statehood

## Summary

One of the most important issues facing educational institutions is the comprehensive development of today's children and the development of true citizenship in society. Currently, a great deal of work has been done in this area in our country. However, there is a lot of work in the educational institutions that is relevant to the education of young schoolchildren in the spirit of devotion to the motherland and statehood. The article touches on this issue, and explains the essence and the task of educating young schoolchildren in the spirit of devotion to Azerbaijani statehood.

**Redaksiyaya daxil olub:** 19.11.2019